**Təhsil və imtahan qaydaları**

Hər bir fənn üzrə tələbələrin nailiyyətlərinin qiymətləndirilməsi fənn müəllimi tərəfindən aparılır. Tələbələrin fənn üzrə göstəriciləri müxtəlif qiymətləndirmə üsulları ilə müəyyən edilir ki, bunlara aralıq imtahanı (mid-term), yekun imtahanı (final), tapşırıqlar, kurs işləri, qısa yoxlamalar (quizlər) və dərsdaxili fəaliyyətlər daxildir. Qiymətləndirmə prosesində tələbələrə 100 bal üzərindən qiymət verilir (aralıq imtahan balı, yekun imtahan balı, quiz balları, təqdimat/kurs işi/tapşırıq ballarının cəmi və s.). Semestrin sonunda isə tələbənin ümumi orta balı fənn müəllimi tərəfindən hərf qiymətinə çevrilir.

Hərf qiymətləri və onlara uyğun faiz aralıqları aşağıdakı kimidir:

Faiz — Fənn üzrə qiymət

91–100 — Əla (A)

81–90 — Çox yaxşı (B)

71–80 — Yaxşı (C)

61–70 — Kafi (D)

51–60 — Keçid (E)

50 və aşağı — Qeyri-kafi (F)

Tələbələr iştirak etdikləri hər bir fənn üzrə yuxarıda göstərilən hərf qiymətlərindən birini əldə edirlər. Keçid qiymətləri A-dan E-yə qədərdir, F isə kəsilmə (uğursuz) qiymətidir.

A, B və C qiymətləri uğurlu nəticə üçün müxtəlif səviyyələrdə şərtsiz “keçdi” statusunu göstərir. D və E qiymətləri isə “şərti keçdi” statusunu ifadə edir; bu halda tələbə yalnız Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (CGPA) 2.00 və ya ondan yuxarı olduqda uğurlu hesab olunur. F qiyməti “kəsildi” deməkdir və tələbə növbəti semestrdə həmin fənni yenidən keçməlidir.